**A.C.CƏBİYEVA**
*dissertant*
*e-mail: a.jabiyeva@adu.edu.az*
**:https://orcid.org/0009-0007-1435-970X**

**Azərbaycan Dillər Universiteti**
(Bakı şəh., R.Behbudov küç., 134)

**10.62021/0026-0028.2025.4.394**

# ALİ MƏKTƏBLƏRDƏ FRANSIZ DİLİNİN KOMMUNİKATİVYÖNÜMLÜ TƏDRİSİNDƏ AUDİO-VİDEO MATERİALLARDAN İSTİFADƏ METODİKASI

***Xülasə.*** *Ali məktəblərdə fransız dilinin kommunikativyönümlü tədrisində audio və video materiallardan istifadənin rolu böyükdür. Belə ki, həm şifahi nitq vərdişlərinin inkişafında, həm də bacarıqların inteqrativ şəkildə mənimsədilməsində sözügedən materiallar mühüm əhəmiyyətə malikdir.*
*Audiovizual vasitələr, istifadə edilən təlim materialları, səs və vizual elementlərin kombinasiyasından ibarət olub, məlumatın effektiv şəkildə ötürülməsini həyata keçirir. Buraya videolar, slaydlar, animasiyalar, səsyazmalar, interaktiv simulyasiyalar, virtual reallıq (VR) və digər media formatları daxildir ki, bunlar da anlamanı, yaddasaxlamanı mükəmməlləşdirir. Bu proses bir çox duyğu orqanları vasitəsilə reallaşdırılır.*

***Açar sözlər:*** *audiovizual materiallar, inteqrasiya, məlumat, dil, ünsiyyət*

Müasir dövrdə texnologiyanın sürətlə inkişafı tədris prosesində yeni yanaşmaların tətbiqini zəruri edir. Bu baxımdan, audio və vizual komponentlərin sintezindən ibarət olan audiovizual vasitələr öyrənmə və öyrətmənin səmərəliliyini artırmaq baxımından xüsusi əhəmiyyət kəsb edir. Audiovizual məzmunlar təkcə informasiya ötürmək funksiyası daşımır, eyni zamanda dilöyrənənlərin motivasiyasını yüksəltmə, anlama bacarıqlarını təkmilləşdirmə və interaktiv öyrənmə mühitinin formalaşdırılmasına da xidmət edir. Podkastlardan tutmuş videodərslərə, səsyazmalardan animasiyalara qədər uzanan geniş spektrli bu vasitələr, fərqli öyrənmə tərzlərinə uyğunlaşdırılmaqla yanaşı, tədris prosesini daha da cəlbedici və yadda qalan edir. Məhz bu səbəbdən audiovizual texnologiyaların tədrisdə tətbiqi aktual olan elmi-pedaqoji məsələ kimi ön plana çıxır.

Qeyd edək ki, audiovizual məzmun həm də multimedia məzmuna aid edilir. Burada həm audio, həm də video komponentlər istifadəçilərin ixtiyarına verilir.

Buraya videomaqnitafonlar, DVD, audio maqnitafonlar, audio CD, mikroformlar aid edilə bilər.

Aşağıda bir neçə audioformatların adlarını qeyd etmək olar:

- podkastlar
- audio ads
- audiokitablar və audiomәqalələr
- playlistlər
- audio oyunlar
- səs asistantları
- səs axtarış optimizasiyası

Audio təlimat materiallarından istifadəni reallaşdıranlara yuxarıda adlarını qeyd etdiklərimizlə bərabər, radioyayım, maqnitafonlar, kasetpleyerlər, CD pleyerlər, volkməntlər (Walkmans

(musiqi dinləmək üçün bir nəfərlik cihaz)), qulaqcıqlar, audiokliplər, səsyazmalar, telefon və mobil vasitələr daxildir.

Audio materiallar təlim materialları olaraq, auditor həssaslığı təmin edir, dilöyrənənlərə dinləyib-anlama vasitəsilə öyrənməni təlqin edir.

Onu da qeyd edək ki, multimedia aplikasiyası nitq, musiqi və səs effektlərinin istifadəsini tələb edir. Bunlar multimedianın audio və ya səs elementi adlandırılır.

Burada bir məsələni xüsusilə vurğulamaq lazımdır ki, nitq tədris üçün möhtəşəm vasitədir. Audio burada analoq və dijital növdür.

Tədqiqatçılara görə, audiovizual vasitələr dilin istifadəsini intensivləşdirir, vizual stimul yaradır.

Qeyd edək ki, audio kontent yaratma audio əsaslı kontentin dinləyicilərlə paylaşılması və emalı prosesidir. Əvvəldə də vurğuladığımız kimi, buraya podkastlar, musiqi, səs gücləndiricilər, radio-şou və digərləri daxildir. Burada imkanlar sonsuzdur. Əsas məsələ ikinci dil daşıyıcısı olan auditoriya ilə uğurlu kommunikasiyanı reallaşdırmaq bacarığıdır.

Qısacası, vizual media görmə ilə, audio media isə dinləmə ilə səciyyələnir. Buradan belə bir nəticə hasil olunur ki, vizual kontentə videolar, animasiyalar, fotolar, qrafik təsvirlər aid olarkən, audio kontentə audio səs yazıları, istifadə edilən musiqi janrları, danışanlar və s. daxildir.

Beləliklə, audiovizual vasitələr haqqında bəhs edərkən onu xüsusilə vurğulamaq lazımdır ki, burada təqdim edilən materiallar öyrənmə, öyrətmə prosesini daha effektiv, maraqlı və inandırıcı edə bilir. Onlar dilöyrənənləri həm motivasiya etmək, həm də stimullaşdırmaq imkanına malikdir.

Bundan əlavə, təhsilalanların anlama qabiliyyətlərini təkmilləşdirir, müşahidə bacarıqlarının inkişafını dəstəkləyir. Eyni zamanda diqqətlərinin düzgün paylanmasına yardım edir, konseptlərin vizuallaşdırılmasında köməkçi vasitə olaraq çıxış edir. Ümumilikdə, audio mənbələr konseptlərin izahında və kommunikasiyanın dəstəklənməsində effektiv hesab edilirlər.

Yuxarıda da qeyd etdiyimiz kimi, bunlar digər media ilə multisensor inputun aparılmasında kombinasiya şəklində çıxış edə bilər. Məsələn, mətn, qrafika, video və s. Onlar musiqinin qiymətləndirilməsində, səslərin identifikasiyasında vacib məsələlərdəndir.

Yeri gəlmişkən, audio öyrənmə və vizual öyrənmə arasındakı fərqə qısa şəkildə nəzər yetirək. Vizual öyrənənlər vizuallığı və imicləri görərək, daha yaxşı mənimsəyə bilirlər. Auditor öyrənənlər isə daha çox dinləmə və sözləri oxumaqla mənimsəməni reallaşdıra bilirlər. Buradan aydın olur ki, vizual öyrənməni seçənlər auditor öyrənənlərdən vizuallığı və imicləri görərək, daha yaxşı mənimsəyə bilirlər. Auditor öyrənənlər isə daha çox dinləmə və sözləri oxumaqla mənimsəməni reallaşdıra bilirlər.

Qısacası, vizual öyrənməni seçənlər auditor öyrənənlərdən fərqli olaraq, baxmaq və seyr etməklə təkmilləşirlər. Lakin hekayə və mühazirələr dinləmək, nitqlərə qulaq asmaq auditor dilöyrənənlər üçün spesifik və ən mükəmməl yol hesab edilir.

Tədqiqatçılardan Y.Ş.Kərimov hesab edir ki, belə texniki vasitələrdən istifadə təlimi əyani, maraqlı etməklə təhsilalanların proqram materialını qavrama səviyyələrini yüksəldir. Dərsdə emosional təsirin gücü onları ruhlandırır və həyata hazırlayır. Bu zaman mənimsəmənin həyata keçirilməsi üçün əlverişli şərait yaranır.

Sözügedən vasitələr təlim prosesinin səmərəliləşdirilməsi, onun məhsuldarlığının yüksəldilməsi, verilənlərin optimal həcminin təmin olunması və pedaqoji idarəetmənin keyfiyyətinin artırılması yolu ilə elmi informasiyanın mənimsənilməsi imkanlarını genişləndirir. Burada videovasitənin keyfiyyəti mühüm əhəmiyyətə malikdir [1, s. 140].

İngilis metodisti C.Harmer texnologiya əsaslı tədrisdən bəhs edərək, onun faydalarından yazır. Tədqiqatçı diqqəti videokommunikasiyanın üzərinə cəlb edərək, onun tələbə-tələbə, müəllim-tələbə interaksiyasında rolunu ön plana çəkir [2, s. 195].

Bundan əlavə, eyni texnologiyadan istifadə edildiyi üçün auditoriyadakı mühitdən fərqli olaraq, burada müəllim tələbə bərabərliyi diqqət mərkəzində dayanır. Nəticə etibarilə, sözüge-

dən vasitələr və onların yardımı ilə reallaşdırılan tədris prosesinə dair materialların mənimsədilməsi dərsin keyfiyyətini artırır, tələbələrin motivasiyasını yüksəldir. Ən başlıcası isə şifahi nitqin inkişafını dəstəkləyir [3, s.5].

Audiovizual və ya AV kommunikasiyaya audio, vizual və interaktiv media komponentləri daxildir ki, onlar məlumat vermək, motivasiya etmək, inandırmaq və ya ikinci dil öyrənənlərdə maraq və həvəs, sevinc, dərs saatlarında əyləncəli anlar yaşatmaq imkanları təklif edir.

Bundan əlavə, ənənəvi statik kontentlə müqayisədə bu vasitələr multimedia vasitəsilə daha geniş və yaddaqalan təcrübə formalaşdıraraq, dilöyrənmədə stimul yaradır [4].

Audiovizual və ya AV təchizatının ən çox yayılmış formalarına mikrafon, səsləndiricilər, proyektor-monitor, kamera və nəzarət sistemləri daxildir. AV təchizatı müasir kommunikasiya, təqdimatlar, əyləncə və əməkdaşlıq baxımından mühüm şərtlərdəndir [5].

Onu da qeyd edək ki, video və animasiya vizual ünsiyyətin dinamik formalarıdır. Onlar məlumatların, ismarıcların və ötürülməsində hərəki surətləri, səs və mətni kombinə edirlər. Videodan fransız dilinin kommunikativ yönümlü tədrisində hekayələr danışmaq, konseptləri izah etmək və s. məsələlər baxımından istifadə edilir. Animasiya isə ideyaları illüstrativ şəkildə təqdim etmək və xarakterlərin həyatla əlaqələndirilməsi üçün qrafik yaratmaqdır [6].

Müasir dövrdə olan pedaqoji yanaşmalarda audiovizual vasitələrdən istifadə tədris prosesinin demokratikləşməsi və fərdiləşdirilməsi baxımından da böyük əhəmiyyət kəsb edir. Bu vasitələr müəllim və tələbə arasında qarşılıqlı əlaqəni inkişaf etdirməklə bərabər, hər bir öyrənənin öz bacarığını önə çıxarmağa şərait yaradır. İnteraktiv platformalar və multimedia resursları vasitəsilə təhsilalanlar öz maraq və bacarıqlarına uyğun şəkildə öyrənmə mühitini formalaşdıra bilirlər. Məsələn, xarici dil öyrənən tələbələr üçün hazırlanan interaktiv video dərslər, danışıq simulyasiyaları və səsyazmalar həm eşitmə, həm görmə, həm də praktiki fəaliyyətləri birləşdirərək çoxşaxəli öyrənmə təcrübəsi təqdim edir.

Eyni zamanda, audiovizual texnologiyalardan istifadə distant və hibrid tədris mühitlərində də mühüm əhəmiyyətə malikdir. Pandemiya dövrü göstərdi ki, təhsilin davamlılığını təmin etmək üçün rəqəmsal alətlər və audiovizual məzmunlar əvəzolunmaz vasitəyə çevrilmişdir. Müəllimlər bu vasitələrlə dərs materiallarını onlayn şəkildə təqdim edə, tələbələrin dinləmə və anlama bacarıqlarını qiymətləndirə bilirlər. Həmçinin tələbələr bu materiallara istənilən vaxt istənilən yerdə yenidən baxa bilir, dinləmək imkanı yaranır. Qeyd edək ki, bu da onlarda əldə etdikləri məlumatı, qaydaları təkrarlamaq, möhkəmləndirmək şansı yaradır.

Məsələyə psixoloji baxımdan diqqət etsək, görərik ki, audiovizual materiallar öyrənmə motivasiyasına müsbət təsir göstərir. Materialın çatdırılmasında istifadə olunan rəng, səs, hərəkət və musiqinin birləşməsi tələbədə emosional təsir gücünü artıraraq, yeni əldə edilmiş biliyin yaddaşda daha uzunmüddətli qalmasına kömək olur. Tədqiqatlar göstərir ki, vizual və auditor informasiyanın birgə təqdim edilməsi zamanı beyində daha çox neyron əlaqələr yaranır və bu da öyrənmənin səmərəliliyini artırır. Məsələn, fransız dilində dinləmə tapşırıqları video və səsyazmalar vasitəsilə aparıldıqda, tələbələr həm tələffüz, həm intonasiya, həm də kontekstual anlam baxımından daha sürətlə inkişaf edirlər.

Audiovizual vasitələrin tətbiqi həm də inklüziv təhsilin genişləndirilməsinə şərait yaradır. Görmə və ya eşitmə məhdudiyyətli şəxslər üçün hazırlanmış adaptiv materiallar – subtitrlər, səs təsvirləri və jest tərcümələri – təhsilin bərabər imkanlar prinsipi əsasında həyata keçirilməsini təmin edir. Bu baxımdan, audiovizual texnologiyalar yalnız tədris keyfiyyətini artırmaqla kifayətlənmir, eyni zamanda təhsil mühitində sosial ədalət və bərabərliyi dəstəkləyir.

Müəllimlər üçün isə bu vasitələr dərs prosesini daha yaradıcı şəkildə qurmaq, abstrakt anlayışları konkretləşdirmək və müxtəlif öyrənmə tərzlərinə uyğun təlim strategiyaları tətbiq etmək imkanı yaradır. Məsələn, qrammatikanın izahında animasiyalardan, mədəni mövzuların təqdimatında isə sənədli videolardan istifadə tələbələrin dərsə marağını artırır və mövzunun daha dərindən qavranılmasını təmin edir.

Nəticə etibarilə, audiovizual vasitələrin tədris prosesində istifadəsi sadəcə texnoloji yenilik deyil, həm də pedaqoji zərurətdir. Onlar biliklərin təqdimatında çoxhissəli qavrama mexanizmlərini aktivləşdirərək, öyrənməni həm əyləncəli, həm də məqsədyönlü hala gətirir. Bu cür vasitələrin sistemli və məqsədyönlü tətbiqi dil tədrisində kommunikativ bacarıqların inkişafına, danışıq və dinləmə vərdişlərinin formalaşmasına, həmçinin yaradıcı və tənqidi düşünmə qabiliyyətlərinin güclənməsinə xidmət edir. Beləliklə, audiovizual texnologiyalar müasir təhsilin mühüm komponenti kimi yalnız texniki vasitə deyil, eyni zamanda öyrənmə fəlsəfəsinin ayrılmaz tərkib hissəsidir.

***İşin elmi nəticəsi.*** Məqalədə audio, video materialların ali məktəblərdə fransız dilinin kommunikativ yönümlü tədrisində oynadığı rol ön plana çəkilərək, onların şifahi nitqin inkişafını dəstəkləməsi, təhsilalanların motivasiya səviyyələrini yüksəltməsi, əməkdaşlıq-əsaslı fəaliyyətlərin həyata keçirilməsi, xarici dil dərslərində interaksiyanın təmin olunması istiqamətində irəliləyişlərin olması, səmərəliliyin artması tədqiqat boyu gəlinən elmi nəticələri özündə ehtiva edir.

***İşin elmi yeniliyi.*** Araşdırılan məqalədə indiyə qədər tədqiq edilən məsələlər təhlilə cəlb edilir, əldə edilən nəticələr xülasələşdirilir, mövcud elmi-nəzəri müddəalara nəzər salınır, müqayisələr aparılır.

***İşin tətbqi əhəmiyyəti.*** Tədqiqata cəlb edilən mövzu həm orta, həm də ali məktəb kontekstində fransız dilinin kommunikativ yönümlü tədrisində dərs saatlarının səmərəliliyinin artırılması baxımından faydalı ola bilər.

***İş aşağıdakı faydalılıq göstəricilərini nümayiş etdirir.*** Beləliklə, audiovizual vasitələr öyrənməni daha effektli və maraqlı edir, fərqli öyrənmə bacarığına malik tələbələrə uyğun tədris imkanı yaradır. Xüsusilə dilöyrənmə prosesində dinləmə və danışıq bacarıqlarının formalaşmasında audiovizual materiallar rolu böyükdür. Bir dəfə hazırlanan audio və ya video materiallar illərlə təkrar istifadə oluna bilər. Bu, uzunmüddətli qənaəti təmin etmiş olur. Həmçinin bir müəllimin hazırladığı audio və ya video dərs minlərlə tələbəyə eyni keyfiyyətlə çatdırıla bilər.

**Ədəbiyyat**


1. Kərimov, Y.Ş. Təlim metodları / Y.Ş.Kərimov, – Bakı: RS Poliqraf MMC, – 2009, – 279 s.
2. Harmer, J. The Practice of English Language Teaching. 5th ed. Pearson Education / J.Harmer, – 2015, –446 p.
3. Henri Besse, Sophie Moirand. Audio-visuel intégré. // Langue Française (Audio-visuel et enseignement du français). Université de Paris-VIII. Paris: Larousse, – 1974, – pp. 5-26
4. https://qnextech.com
5. https://www.intellievent.com
6. https://www.pageon.ai


**A.J.Jabiyeva**

**The methodology of Using Audio-Visual Materials in the Communicative-Oriented Teaching of French in Higher Education Institutions**

***Summary***

The role of using audio and video materials in the communicative-oriented teaching of French in higher education is significant. These materials play an important role both in the development of speaking skills and in the integrative acquisition of various competencies.

Audio-visual tools and materials consist of a combination of sound and visual elements, facilitating the effective transmission of information. These include videos, slides, animations, audio recordings, interactive simulations, virtual reality (VR), and other media formats, all of which enhance comprehension and memory retention. This process engages multiple sensory channels.

***Keywords:*** *audio-visual materials integration, information, language, communication*

**А.Дж.Джабиева**

**Методика использования аудио- и видеоматериалов в коммуникативно-ориентированном обучении французскому языку в вузах**

***Резюме***

Использование аудио- и видеоматериалов в коммуникативно-ориентированном обучении французскому языку в вузах играет важную роль. Эти материалы имеют большое значение как для развития устной речи, так и для интегративного усвоения языковых навыков.

Аудиовизуальные средства и материалы представляют собой комбинацию звуковых и визуальных элементов, обеспечивая эффективную передачу информации. К ним относятся видео, слайды, анимации, аудиозаписи, интерактивные симуляции, виртуальная реальность (VR) и другие медиаформаты, которые способствуют лучшему пониманию и запоминанию. Этот процесс осуществляется с участием различных органов чувств.

***Ключевые слова:*** *аудиовизуальные материалы, интеграция, информация, язык, коммуникация*

*Rəyçi: ped.f.d., dos. J.F.Mehrəliyeva*

*Redaksiyaya daxil olub:01.11.2025*